**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**057/308

**Bakı şəhəri** "28" noyabr **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2022-ci il noyabr ayı üzrə rəsmi məlumatlarına əsasən, İsveç Krallığının Esterqotlandiya (Östergötland) əyalətində Nyukasl, İspaniya Krallığının Andalusiya (Andalucía), Estremadura (Extremadura), Kastiliya–La Mança (Castilla - La Mancha) muxtar icmalarında, Rusiya Federasiyasının Saratov (Saratov) vilayətində, Serbiya Respublikasının Orta-Banatski (Srednje-Banatski), Şimali-Baçski (Severno-Bačkі), Cənubi-Baçski (Južno-Bački), Qərbi-Baçski (Zapadno-Bački) dairələrində isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Nyukasl xəstəliyi üzrə:**

**1.1.1.** 2022-ci il 5 noyabr tarixli 064/239 nömrəli qərarla İsveç Krallığının Esterqotlandiya əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 11 fevral tarixli 011/186 nömrəli qərarla İspaniya Krallığının Andalusiya muxtar icmasına tətbiq edilmiş məhdudiyyət;

**1.2.2.** 2022-ci il 5 sentyabr tarixli 050/225 nömrəli qərarla İspaniya Krallığının Estremadura muxtar icmasına tətbiq edilmiş məhdudiyyət;

**1.2.3.** 2022-ci il 12 sentyabr tarixli 051/226 nömrəli qərarla Rusiya Federasiyasının Saratov vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.4.** 2022-ci il 15 sentyabr tarixli 053/228 nömrəli qərarla İspaniya Krallığının Kastiliya–La Mança muxtar icmasına tətbiq edilmiş məhdudiyyət;

**1.2.5.** 2022-ci il 11 noyabr tarixli 066/241 nömrəli qərarla Serbiya Respublikasının Orta-Banatski, Şimali-Baçski, Cənubi-Baçski, Qərbi-Baçski dairələrinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**